Afişa

# Operanın 107-ci mövsümünün “Koroğlu”su

## *Səhnəyə ilk çıxanlar da alqışlandılar*









Türkdilli xalqlara məxsus “Koroğlu” dastanının epik janrdan lirikaya keçməsi və səhnə ömrü yaşaması, təbii ki, dahi bəstəkarımız, Şərqdə ilk operanın banisi Üzeyir bəy Hacıbəylinin adı ilə bağlıdır. Operanın ilk librettosu isə Həbib İsmayılov və Məmməd Səid Ordubadi tərəfindən yazılıb. Bu əsər Üzeyir bəy Hacıbəyli yaradıcılığının zirvəsi sayılır. Nadir sənət incilərindən olan operada Üzeyir bəy ilk dəfə olaraq ariyalar, kütləvi xor səhnələri, müxtəlif ansambllar, balet nömrələri yaradıb. Əsər ilk dəfə 1937-ci il aprelin 30-da Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında tamaşaya qoyulub.

İllər keçsə də, libretto sevimli və tələbkar tamaşaçılarını itirməyib, əksinə, yeni Koroğlular, Nigarlar, Həsən xanlar, paşalar, keçəl Həmzələri səhnəyə çıxarıb. Azərbaycan Dövlət Akademik Opera və balet Teatrının 107-ci mövsümündə də “Koroğlu” əvvəlki qiyafəsində, amma yeni ifaçılarla tamaşaçıların qarşısına çıxıb. 3 pərdəli, 5 şəkilli operanın librettosu Hidayət İsmayılzadəyə, şeirləri isə Məmməd Səid Ordubadiyə məxsusdur.

Operanın dirijoru xalq artisti Cavanşir Cəfərov, quruluşçu rejissoru əməkdar incəsənət xadimi Hafiz Quliyevdir. Operanı Koroğlu kimi əməkdar artist Fərid Əliyev təqdim edib. Nigar surətini yaradan əməkdar artist İlahə Əliyevanın, Həsən xanın (əməkdar artist Cahangir Qurban), Əhsən paşanın (Taleh Yəhyayev), Həmzə bəyin (Tural Ağasıyev), xanəndə Çinarə Şirinin, eləcə də digər ifaçıların yaratdıqları obrazlar tamaşaçıların zövqünü oxşamaqla yanaşı, həm də Üzeyir bəy Hacıbəyli sənətinə məhəbbətin tərənnümü kimi alqışa layiq olub.

***Məhəmməd NƏRİMANOĞLU,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***